# (HƏDIS (15 10

<"xml encoding="UTF-8?>

## (HƏDIS (15 10

".Hədis 140: Həzrət Əli (ə) buyurur: "Yoxsulluq çox böyük ölümdür

* * *

Hədis 141: Həzrət Məhəmməd (s) buyurur: "Peyğəmbərlik məqamına daha yaxın olanlar alimlər ".və (haqq yolda) cihad edənlərdir

* * *

Hədis 142: Həzrət Əli (ə) buyurur: "Səni kədərləndirən pis bir işin səni məğrur edən xeyir işindən ".Allah yanında daha yaxşıdır

* * *

Hədis 143: Həzrət Məhəmməd (s) buyurur: "Bir qəbilənin ölümü alimin ölümündən daha asan ".və dözüləsidir

* * *

Hədis 144: Həzrət Məhəmməd (s) buyurur: "Hər hansı bir məclisdə oturub elmini artırmayan ".kəs, Allahdan uzaqlığını artırmışdır

* * *

Hədis 145: İmam Riza (ə) buyurur: "İbadət çoxlu oruc və namaz yox, yaradılış haqqında (Allahın ".yaratdıqlarında) düşünməkdir

* * *

".Hədis 146: İmam Riza (ə) buyurur: "Sükut hikmət qapılarından olan bir qapıdır

.Hədis 147: İmam Riza (ə) buyurur: "Qohumluq əlaqəsini bir içim su ilə də olsa, möhkəmləndir

* * *

Hədis 148: İmam Riza (ə) buyurur: “Bir-birinizin görüşünə gedin ki, dostluğunuz möhkəmlənsin”.

* * *

Hədis 149: İmam Riza (ə) buyurur: “Peyğəmbər ailəsinə dostluq ümidi ilə saleh əməli və ibadətdə sə`y göstərmənizi tərk etməyin”.

* * *